Xalq qəzeti.-2021.-17 dekabr.- S. 3

**Prezident İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri çərçivəsində keçirdiyi səmərəli görüşlər Azərbaycanın haqlı mövqeyinin ifadəsi ilə yanaşı, həm də aktuallığı ilə diqqət çəkdi. Bu, Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin Brüsseldə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair Bəyanatında da öz ifadəsini tapdı.**

# Azərbaycan Prezidenti sülhə, sabitliyə sadiqliyini dünyaya nümayiş etdirdi

Xatırladım ki, həmin bəyanatda Aİ Şurasının Prezidenti tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına, Cənubi Qafqazda sülhün bərqərar olunması üçün iki ölkə arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilməsi, 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr görüşlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsinin zəruriliyinin diqqətə çatdırılması ölkəmizin haqlı mövqeyinin bir daha təsdiqləndiyindən xəbər verir.

Ümumiyyətlə, Aİ Şurasının Prezidentinin Bəyanatında səsləndirilən müddəalar Azərbaycanın ədalətli mövqeyi ilə üst-üstə düşür. Ölkəmiz öz üzərinə düşən nəzərdə tutulan öhdəlikləri vaxtında və uğurla yerinə yetirir. Amma Ermənistanda yaşanan siyasi böhran, habelə özünü qabarıq büruzə verən revanşizm meyilləri bu dövlətin müharibədən ötən müddətdə sülh, barış addımları atmasını əngəlləyir.

Bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib.




Rəşad Mahmudov Bəyanatda ölkəmiz üçün bir sıra önəmli məsələlərin yer almasına və bu sırada itkin düşmüş şəxslər mövzusunun qabardılmasına toxunarkən, münaqişə dövründə yüzlərlə soydaşımızın taleyindən hələ də xəbərsiz-ətərsiz olduğumuzu xatırladıb.

Bəyanatda humanitar minatəmizləmə səylərinə dəstək göstərilməsi tədbirlərinə, işğaldan azad olunan ərazilərdə reallaşdırılan reabilitasiya və rekonstruksiya işlərinə, habelə Aİ tərəfindən sərhədlərin demarkasiyası və delimitasiyasına məşvərətçi statusda dəstəyin ifadə olunması zəruriliyi də fikrimcə, Brüssel görüşlərində Azərbaycan diplomatiyasının növbəti qələbəsi, eyni zamanda, Prezident İlham Əliyevin qətiyyətli, prinsipial mövqeyinin məntiqi nəticəsidir.

Deputat, həmçinin Brüsseldə Prezident İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin birgə mətbuat konfransında və bu təşkilatın Şimali Atlantika Şurasının iclasında toxunulan məsələlərə münasibət bildirərkən deyib: “NATO və Azərbaycan arasında əməkdaşlığa tərəflər hər zaman xüsusi diqqət yetirib. Prezident İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin Brüsseldə Alyansın mənzil-qərargahında keçirilən birgə mətbuat konfransında da bu barədə ətraflı bəhs edilib, tərəfdaşlıqda daim dialoq və qarşılıqlı anlaşmaya, dinamizmə üstünlük verildiyi xatırladılıb. Bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər olan bütün sahələrdə uğurlu nəticələr əldə edildiyi vurğulanıb. Münasibətlərin dərinləşməsində Azərbaycanın NATO-nun Əfqanıstandakı sabiq missiyasına mühüm töhfələr verməsi əsas rol oynayıb. Təbii ki, respublikamızın NATO ilə münasibətlərində bu və digər fəaliyyət istiqamətləri Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib.

Elə bütün bu məqamların qısa xülasəsi də ölkəmizin hər zaman sülhün, sabitliyin tərəfində dayanmasından xəbər verir. Azərbaycan hazırda Cənubi Qafqazda yaşanan postmüharibə vəziyyətində də bu mövqeyə sadiqlik nümayiş etdirir, bölgənin əmin-amanlıq mühitinin canlandırılmasına səylərini əsirgəmir, regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsinə prioritet istiqamət kimi yanaşır. Regionda yol kommunikasiyalarının açılması, Ermənistanla fəal dialoqun qurulması və yeni qonşuluq münasibətlərinin yaranması istiqamətində göstərilən səylər bunun bariz ifadəsidir. Burada diqqətçəkən məqam həm də odur ki, Azərbaycan sülhə yönələn bu əməkdaşlıq missiyasını açıq və aydın şəkildə gerçəkləşdirir. Bu, həm də ölkəmizin yürütdüyü siyasətin humanizmindən, sülh və sabitliyin rifahı, inkişafı şərtləndirdiyi qənaətinə əminliyi ifadəsindən irəli gəlir. Ancaq bu məsələdə üzləşilən problemlərin həllinə Ermənistan tərəfindən indiyədək xoş məram nümayiş etdirilmir. Əgər bundan sonra Azərbaycan ərazisinin 20 faizini uzun illər işğal altında saxlayan və ötən il Vətən müharibəsində acı məğlubiyyətdən sonra kapitulyasiya aktını imzalamağa məcbur olan Ermənistan təklif edilən sülh razılaşmasına qoşularsa, həm bölgədə düşmənçiliyə son qoyular, həm də regionun həyatında inkişaf, tərəqqi aydın nəzərə çarpar”.

Rəşad Mahmudovun sözlərinə görə, İkinci Qarabağ müharibəsindən ötən bir il ərzində üçtərəfli Bəyanatda nəzərdə tutulan müddəaların sırasında önəmli yer tutan Zəngəzur dəhlizinin reallaşmasına Azərbaycan prioritet istiqamət kimi yanaşıb. Prezident İlham Əliyev NATO-nun mənzil-qərargahında keçirilən birgə mətbuat konfransında bununla bağlı mövcud vəziyyəti dəqiq ifadə edib: “Zəngəzur dəhlizi ilə bağlı demək istərdim ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli Bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir. Baxmayaraq ki, bir ildən çox vaxt ərzində irəliləmək asan olmayıb, bu mərhələdə biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvan Muxtar Respublikasına dəmir yolu əlaqəsinin tikintisi ilə bağlı razılıq, həmçinin magistral yol inşasına dair razılıq əldə etmişik. Lakin magistral yolun dəqiq marşrutu hələ ki, müəyyən olunmayıb. Bu, gələcək müzakirələrin mövzusudur...”.

Deputat açıqlamasının sonunda dövlətimizin başçısı İlham Əliyevin Brüsseldə Aİ-nin Şərq Tərəfdaşlığının VI Sammitindəki çıxışında adıçəkilən təşkilatın sədri Şarl Mişelin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına verdiyi töhfəni yüksək dəyərləndirərək, onun təşəbbüsü ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələrin konstruktiv mühitdə keçdiyini, iki ölkə arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, danışıqların nəticə etibarilə səmərəli və praqmatik keçdiyini xüsusi qeyd edib. Dövlətimizin başçısı yaranmış fürsətdən istifadə edərək regionda davamlı sülhün təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini bildirib.

*“Xalq qəzeti”*